# Adını tarixə "qorxu bilməyən döyüşçü" kimi həkk etdirən ŞƏHİDİM



**Vətənpərvərlik hər bir xalqın mənəvi dayağı, milli ruhunun əsas göstəricisidir. Azərbaycan xalqının tarixində Vətən uğrunda canından keçən, torpaqlarımızın azadığı naminə misilsiz qəhrəmanlıq göstərən igid oğullarımızın adı daim hörmətlə anılır.**

**2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi xalqımızın birliyini, ordumuzun gücünü və Azərbaycan gənclərinin vətənpərvərliyini bütün dünyaya nümayiş etdirdi. Bu Qələbə qüdrətli Azərbaycan Ordusunun igid əsgərlərinin misilsiz şücaəti nəticəsində qazanıldı. Bu şanlı qələbənin qazanılmasında xüsusi igidlik göstərən hərbçilərimizdən biri də Vətən Müharibəsi Qəhrəmanı Əfqan Ağasəf oğlu Abdurahmanovdur. O öz xidmət yolunda yalnız bir əsgər deyil, həm də əsl vətənpərvər, mərd və cəsur bir Azərbaycan oğlu kimi tanındı. Onun qəhrəmanlığı bir daha sübut etdi ki, Azərbaycan əsgəri Vətən yolunda heç bir çətinlikdən çəkinmir.**

Əfqan Abdurahmanov gənc yaşlarından Vətənə bağlı, milli ruhda böyüyub, Azərbaycan dövlətinə və xalqına sədaqətlə xidmət etməyi özünə ən böyük borc hesab edib. O, xidməti yolunda yalnız bir əsgər deyil, həm də əsl vətənpərvər, mərd və cəsur bir Azərbaycan oğlu kimi tanınıb. Vətən müharibəsi zamanı qəhrəman şəhidimiz ən ağır və məsuliyyətli döyüş tapşırıqlarını yerinə yetirib, düşmən mövqelərinin darmadağın edilməsində, strateji yüksəkliklərin azad olunmasında böyük şücaət göstəribdir.

Əfqan Abdurahmanov 1976-cı il mayın 25-də Bakı şəhərində anadan olub. O, 1982-1993-cü illərdə Binəqədi rayonunda Vahid Əzizov adına 30 nömrəli tam orta məktəbdə təhsil alıb. 1995-1997-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olduqdan sonra, 1997-2001-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. 2001-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində təcrübədə olduqdan sonra 2002-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başlayıb. Qulluq etdiyi müddətdə Türkiyə, Çexiya və Çində Müdafiə Nazirliyinin Sərəncamı ilə müxtəlif kurslara, hərbi təlimlərə qatılıb.

Əfqan Abdurahmanov Vətənə xidmət etdiyi dövrdə hərbi nailiyyətləri və üstün şəxsi keyfiyyətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" yubiley medalı (2001), "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı (2008), "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı (2010), "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı (2013), "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı (2015), "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı (2016), "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı (2018), "Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medalı (2020) ilə təltif edilib.

Aprel döyüşləri Azərbaycan hərbi tarixində şanlı qəhrəmanlıq və ordunun qələbə ruhunun simvolu kimi təqdim olundu. Bu döyüşlər zamanı Əfqan xüsusi qəhrəmanlıqla xidməti vəzifəsini yerinə yetiribr. Goranboy rayonunun Baranbat meşəsi adlanan ərazidə xidmət edib. Azərbaycan hərb tarixinin qızıl səhifəsi olan Aprel döyüşlərində zabit Əfqan Abdurahmanovun rəhbərlik etdiyi hərbçilərimizin də böyük töhfəsi olub.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Əfqan Abdurahmanov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsinin ilk günlərində işğaldan azad edilən ərazilərimizdən biri olan Murov dağı silsiləsindəki zirvələrdən birinə bayrağımızı sancanlardan olub. Əməliyyatın uğurlu keçməsində Əfqan Abdurahmanov və onun döyüşçülərinin böyük rolu olub. Zirvəyə bayraq sancan Əfqan Abdurahmanov həyatının ən xoşbəxt agününü yaşayıb.

Bu əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu, vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nöqtələri nəzarətə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verib.

Daha sonra Suqovuşana kimi olan kəndlər azad edilib. Suqovuşan kəndinin azad edilməsindən öncə Əfqan Abdurahmanovun dəstəsi mühasirəyə düşmək təhlükəsi ilə qarşılaşıb. Ac-susuz qalan hərbçilərimiz hər cür çətinliyə dözüb, yarpaqların üstündəki şehləri toplayaraq içiblər, amma ruhdan düşməyiblər. Çünki onların Əfqan kimi peşəkar komandiri vardı, ona inanıblar. Hərbçilərimiz bu çətinliyin də öhdəsindən gəliblər. Əfqan hərbçilərimizlə birlikdə Mübariz İbrahimovun şəhid oldugu postu azad edib. Suqovuşan istiqamətində düşmənin ağır məğlubiyyətə uğradılmasında, tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilməsində Əfqan Aburəhmanov və tabeçiliyində olan əsgərləri də yaxından iştirak edib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib. Düşmən Suqovuşanın itirilməsi ilə heç cür barışa bilmir, strateji cəhətdən önəmli olan yaşayış məntəqəsini geri almaq məqsədilə bir neçə dəfə əks-hücuma keçir, lakin ordumuz tərəfindən hücumun qarşısı alınıb, düşmən çoxsayda canlı qüvvə və texnika itirərək geri çəkilməli olub.

Qarşıda isə Ağdərə vardı. Oktyabrın 10-da Əfqan Abdurahmanovun rəhbərliyi ilə hərbçilərimiz Ağdərə ətrafında yerləşən yüksəkliklərdən birinin düşməndən təmizlənməsi əməliyyatını həyata keçirib. Artıq ağır döyüşlər gedir, düşmən xeyli sayda canlı qüvvəsini itirib. Polkovnik-leytenanta bildirilir ki, 20 dəqiqədən sonra humanitar atəşkəs qüvvəyə minir, hücum əməliyyatı dayandırılsın. Əfqan Abdurahmanov əmrə tabe olur və hücumu dayandırır. Düşmən üçün isə atəşkəs bir bəhanə, xəbis niyyətini həyata keçirmək məqsədilə yaranmış imkan idi. Dəfələrlə olduğu kimi bu dəfə də mövqelərimiz atəşə tutulur. Tankın



partlaması nəticəsində yaranan partlayış dalğası Əfqan Abdurahmanovu kənara atır. Alnı yaxınlıqdakı qayaya dəyməsi nəticəsində şəhadətinə qovuşur. Döyüş zabiti, qələbə arzusu ilə yaşayan, həmyerlisi Polad Həşimovun intiqamını alacağına söz verən Əfqan Abdurahmanov qəhrəmancasına həlak olur. Polkovnik-leytenant Əfqan Abdurahmanov Qəbələ rayonunun Əmirvan kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il Sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Əfqan Abdurahmanovun döyüş yolu bu gün gənc nəsil üçün böyük örnəkdir. Onun vətənpərvərliyi, cəsarəti və xalqına sədaqəti hər bir Azərbaycan gəncinin qəlbində vətən sevgisini daha da gücləndirir. Belə qəhrəmanlar sayəsində Azərbaycan xalqı daim başıuca yaşayır və gələcəyə inamla baxır.

**Ruhun şad olsun, ŞƏHİDİM!**




*Gülşəndə MAMEDOVA*
*Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*